Easycol BABY+

İZİKOL BEYBİ+®

*bioloji fəallığa malik qida əlavəsi*

## LAKTAZA NƏDİR?

Laktaza bağırsaqda sintez olunan ferment olub, laktozanın hidrolizi prosesində fundamental rol oynayır. Bu ferment laktozanı iki komponentə (qlükoza və qalaktozaya) parçalayaraq orqanizm tərəfindən mənimsənilməsini təmin edir.

## LAKTOZA TAMAMƏN HƏZM OLUNMURSA NƏ BAŞ VERİR?

İlk aylarda körpələrdə südün həzmində çətinliklər olur, çünki laktozanın bir hissəsi hidrolizə uğramır. Bu hal əsasən həyatın ilk 4 ayında rast gəlinir və endogen laktaza sintezinin zəif olması ilə əlaqəlidir. Nəticədə isə hər yeməkdən sonra laktozanın bir hissəsi hidrolizə uğramadan qalır. Laktoza qalığı bağırsaq florasının təsirinə məruz qalır, nəticədə qaz əmələ gəlir, həmçinin osmotik diareya yaranır. Bu proses zamanı körpədə köp, ağrı və diskomfort hissi olur və körpə uzunmüddətli ağlayır.

## BU HALDA NƏ ETMƏK LAZIMDIR?

Bu problemi həll etmək məqsədi ilə laktaza tərkibli qida əlavəsi qəbul etmək məsləhət görülür. Laktozaya enzimatik təsirin artması südün həzmini yaxşılaşdırır və körpənin fasiləsiz ağlamasına səbəb olan diskomfort hissini azaldır.

## EASYCOL BABY+ ® NƏDİR?

Easycol BABY+ ® sadəcə südə təsir göstərən laktaza fermenti tərkibli qida əlavəsidir. Easycol BABY+ ® həyatın ilk aylarında laktozanın həzmini yaxşılaşdırmaq üçün, laktaza fermentinin müvəqqəti defisitini kompensasiya etmək məqsədilə ana südü ilə və ya süd qatışıqları ilə istifadə edilə bilər. Easycol BABY+ ® təbii və təhlükəsiz məhlul olub, diskomfort hissini azaldır və diskomfortun səbəb olduğu fasiləsiz ağlamanı aradan qaldırır.

## EASYCOL BABY+ ® NECƏ TƏSİR GÖSTƏRİR?

Easycol BABY+ ® yalnız ana südündə və ya körpələr üçün süd qatışıqlarında olan laktozaya təsir edir. Easycol BABY+ ® (laktaza fermenti) laktozanı iki sadə şəkərə (qalaktoza və qlükozaya) parçalayır, beləliklə də südün yaxşı həzm olunmasını təmin edir.

*Elmi təcrübələr göstərmişdir ki, laktaza fermenti əlavə olunan süd qəbul edən körpələr daha az ağlayır. Bu da südün həzminin yaxşılaşmasını göstərir.

## EASYCOL BABY+ ® NƏ ZAMAN İSTİFADƏ OLUNMALIDIR?

Easycol BABY+ ® təhlükəsiz məhsuldur və həyatın ilk günündən etibarən istifadə edilə bilər. Laktozanın həzminin pis olması ilə əlaqəli diskomfort adətən təbii olaraq 4 aydan sonra keçir, çünki bu vaxt orqanizm kifayət qədər endogen laktaza sintez edə bilir. Bu dövrdə uşaqların rasionuna yarımbərk qidalar (şorba və sıyıqlar) daxil edilir. Bu zamandan etibarən Easycol BABY+ ® qəbulu tədricən azaldıla bilər. Əgər bu halda diskomfort yaranarsa, o zaman Easycol BABY+ ® qəbulunu azaltmağa başlamadan öncəki dozanı qəbul etmək məsləhət görülür.

## EASYCOL BABY+ ® NECƏ İSTİFADƏ EDİLMƏLİDİR

Easycol BABY+ ® ana südü ilə və ya süd qatışıqları ilə istifadə edilir.

• Ana südü ilə:

-Sağılmış süd: cədvəldə göstərilən miqdarda damcı birbaşa südə əlavə edilir və yaxşıca qarışdırılır.

-Laktasiya: süd verməzdən öncə cədvəldə göstərilən miqdarda damcı kofe qaşığı ilə körpəyə verilməlidir.

• Süni uşaq qidaları: cədvəldə göstərilən miqdarda damcı birbaşa süni qidaya əlavə edilir və yaxşıca qarışdırılır.

Easycol BABY+ ® südün dadını dəyişmir və soyuq ya da isti südə qarışdırıla bilər.

Əgər körpənin yeməyini əvvəlcədən hazırlamaq lazımdırsa, südə 4 damcı Easycol BABY+ ® əlavə edib soyuducuda 4 saata qədər saxlamaq olar.

Aşağıdakı cədvəldə Easycol BABY+ ® dozaları göstərilmişidir. Xüsusi hallarda əgər körpədə diskomfort hissi çox olarsa Easycol BABY+ ® dozası pilləli olaraq (damcıların sayını bir-bir artırmaqla) artırıla bilər, lakin damcıların maksimal sayı hər qida qəbulu üçün 12-dən çox olmamalıdır.

| Yaş | Hər qida qəbulu üçün südün miqdarı | Hər qida qəbulu üçün damcıların sayı | Hər qida qəbulu üçün laktaza miqdarı | Qida qəbulu sayı | Gündəlik qəbul |
|---|---|---|---|---|---|
| 0-2 həftə | 60 - 90 ml | 5 damcı | 750 ALU | 6 | 4500 ALU |
| 3-4 həftə | 120 ml | 6 damcı | 900 ALU | 6 | 5400 ALU |
| 1-2 ay | 150 ml | 8 damcı | 1200 ALU | 5 | 6000 ALU |
| 3-4 ay | 180 ml | 9 damcı | 1350 ALU | 5 | 6750 ALU |
| >4 ay | 210 ml | 12 damcı | 1800 ALU | 4 | 7200 ALU |

1 damcı-50 µl

## İNQREDİYENTLƏR

Laktaza (Lactase) -45000 ALU; Qliserin, su;
Stabilizator: kalium xlorid
Konservant: kalium sorbat

## VACİB MƏLUMAT

Göstərilən doza həddini aşmaq olmaz. Qida əlavəsi müxtəlif çeşidli pəhrizi əvəz etmir. Balanslaşdırılmış pəhriz və sağlam həyat tərzi keçirmək vacibdir.
Məhsulun inqrediyentlərinə qarşı yüksək həssaslıq, allergiya və digər məhsullarla qarşılıqlı təsir olarsa, məhsuldan istifadə etmək olmaz. Dərman vasitəsi deyil.

## SAXLANMA QAYDASI

Orijinal qablaşmada, 25°C-dən aşağı temperaturda, quru və sərin yerdə saxlamaq lazımdır. İşıqdan və istidən qorumaq lazımdır. Uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

## BURAXILIŞ FORMASI:

Məhlul 15 ml.

**İstehsalçı**: Lecifarma - Laboratório Farmacêutico, Lda.
Várzea do Andrade, Cabeço de Montachique,
2670-741 Lousa LRS - PORTUQALİYA

* DJ Kanabar et al. Improvement of symptoms in infant colic following reduction of lactose load with lactase. Journal of Human Nutrition and Dietectics 2001 14: 359-363.